# POLKOVNİK-LEYTENANT BAXŞƏLİYEV QƏRİB İNQİLAB OĞLU



Polkovnik-leytenant Baxşəliyev Qərib İnqilab oğlu 22 may 1977-ci ildə Bakı şəhərində anadan olmuşdur.

29.07.1995-ci ildə Bakı şəhəri SHXÇDX-nin Nərimanov rayonu tərəfindən hərbi xidmətə çağırılıb.

1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olunmuş və 1999-cu ildə həmin məktəbi bitirmişdir.

Azərbaycan Ordusunun zabiti kimi motoatıcı taqım komandiri, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin tədris bölüyünün taqım komandiri-tərbiyəçi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin tədris bölüyünün komandiri-müəllim, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursun bölük komandiri, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə bölmənin psixoloqu, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə bölmənin psixoloqu-şöbə rəisinin baş köməkçisi, Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə şöbə rəisinin mənəvi-psixoloji təminat üzrə müavini, hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini-ideoloji iş və mənəvi psixoloji təminat üzrə bölməsinin rəisi vəzifələrini icra etmişdir.

18.10.2019-cu il tarixindən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Humanitar və Sosial fənlər kafedrasının hərbi fənlər silsiləsinin baş müəllimi (hərb tarixi üzrə) vəzifəsində xidmət etmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini-Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 26.02.2014-cü il tarixli müvafiq əmri ilə polkovnik-leytenant hərbi rütbəsi verilmişdir.

Xidmət etdiyi müddət ərzində Müdafiə Nazirinin müvafiq əmrləri ilə xidmətdə fərqləndiyinə görə "Silahlı Qüvvələrin 10 illik" yubiley medalı, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, "Silahlı Qüvvələrin 90 illik" yubiley medalı, "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı, "Silahlı Qüvvələrin 95 illik" yubiley medalı, "Qüsursuz xidmətə görə 1-ci dərəcəli" medalı, "Azərbaycan Ordusunun 100 illik" yubiley medalı, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Veteranı" medalı ilə təltif olunmuşdur.

Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğurunda" medalı ilə təltif olunmuşdur.

2020-ci ilin noyabr ayında torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına **şəhid** olmuşdur.

Ailəli idi, 3 övladı var.